*Tarix fakültəsi - 105*

**UOT 94(479.24)**

**İBRAHİM ZEYNALOV**
*Bakı Dövlət Universitetinin professoru,*
*Tarix fakültəsinin dekanı, tarix elmləri doktoru*
**ibrahimzeynalov@bsu.edu.az**

**RƏŞAD CABBAROV**
*Bakı Dövlət Universiteti*
**rashadcabbarov@bsu.edu.az**

# BDU-105: ZƏNGİN ƏNƏNƏLƏRİ OLAN TARİX FAKÜLTƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/59-72

*70 ilə yaxın bir müddətdir ki, Bakı Dövlət Universiteti və ümummilli lider Heydər Əliyevin adları qoşa səslənir. Bu adların vəhdəti Azərbaycanın siyasi qüdrəti ilə mənəvi yüksəliş birliyinin rəmzi ifadəsi kimi qavranılır. Ulu öndər Heydər Əliyev ölkəmizin siyasi iradəsinin aparıcı qüvvəsi Bakı Dövlət Universiteti isə mədəniyyətimizin, elmimizin, təhsilimizin möhtəşəm məbədi kimi vəzifəni yerinə yetirir, milli-mənəvi dəyərlərimizin zənginləşməsində, milli ruhlu, vətənpərvər gənc nəslin yetişdirilməsində müstəsna rol oynayır. Məqalədə xalqımızın dahi oğlu, dünya şöhrətli dövlət xadimi və siyasətçi Heydər Əliyevin Bakı Dövlət Universiteti və bu böyük təhsil məbədinin yaşıdı olan Tarix fakültəsi haqqında söylədiyi fikirlərdən, bu təhsil ocağına verdiyi dəyərdən, göstərdiyi dəyər və qayğıdan bəhs olunur. Məqalənin məzmununda ulu öndər Heydər Əliyevin Bakı Dövlət Universitetinin yubileylərində, burada keçirilən müxtəlif mərasimlərdə çıxışları və onun layiqli davamçısıolan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, ulu öndərin ideyalarının müvəffəqiyyətlə həyata keçirilməsində, 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanmasında, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında, bütün ölkə ərazisində suverenliyimizin bərqərar olunmasıdakımisilsiz fəaliyyəti əsas yer tutur. Məqalədə Tarix fakültəsinin 105 illik tarixindən, onun keçdiyi şərəfli yoldan, həmçinin fakultənin formalaşmasında, inkişafında rolu olan görkəmli şəxsiyyətlərdən, alimlərdən, fakültədə əldə edilən elmi nailiyyətlərdən, elmi əlaqələrdən və fakultənin bu günündən bəhs olunur.*

*Açar sözlər:* Azərbaycan Respublikası, Bakı Dövlət Universiteti, Tarix fakültəsi, umumilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 1969-cu il 5 avqust tarixi, Azərbaycan KP MK-nın plenumu, publik şəxs.

***Giriş.*** Hər bir xalqın milli şüurunun, milli mənliyinin formalaşması onun elminin, təhsilinin, mədəniyyətinin inkişafı və səviyyəsi ilə şərtlənir. Bəşəri sivilizasiyanın ən yüksək pilləsinə yüksəlmək kimi şərəfli yol keçmiş xalqlar hər şeydən əvvəl elm və təhsilin, mədəniyyətin inkişafına borcludur.

Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə,ağır proseslərinə baxmayaraq,biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək, böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.Ulu öndər məmləkətimizin

siyasi idarəsinin aparıcı qüvvəsi, Bakı Dövlət Universiteti isə mədəniyyətimizin, elmimizin, təhsilimizin möhtəşəm məbədi kimi tarixi vəzifəni yerinə yetirir.Əslində, universitetimizin tarixi Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı tarixidir.

XX əsrin 60-cı illərinin ikinci yarısında Azərbaycanda hökm sürən uzunmüddətli gerilik, sosial-iqtisadi çətinliklər, böhran vəziyyəti, milli ənənələrimizə hücumlar, dilimizin sıxışdırılması, rüşvətxorluğun, korrupsiya hallarının güclənməsi Bakı Dövlət Universitetindədə mənfi meyllərin meydana gəlməsinə səbəb olmuşdur.

Respublikanın belə bir ağır vəziyyətində, 1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycanda siyasi rəhbərliyə gəldi [1].

1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə plenum keçirildi. Plenumda respublikanın sosial-iqtisadi, siyasi, mədəni həyatında, o cümlədən, elm və təhsil sahəsində də mövcud olan nöqsanlar, qüsurlar ciddi tənqid olundu və bütün bunların aradan qaldırılmasının yolları müəyyənləşdirildi.

1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında, o cümlədən, elm və təhsil sahəsində də intibah dövrü başladı. Həmçinin, Bakı Dövlət Universitetinin həyatında və fəaliyyətində də yeni yüksəliş mərhələsi başladı. Bu illərdə Universitetinin fəaliyyətinin genişlənməsinə, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, kadr potensialının artırılmasına xüsusi qayğı və diqqət göstərildi.Tədris işinin yaxşılaşdırılmasına, elmin inkişafına, elmi əlaqələrin genişləndirilməsinə yönələn tədbirlər görüldü.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən Azərbaycan Respublikasının rəhbərliyinə gəlməsi ilə ölkədə olduğu kimi Bakı Dövlət Universitetinin fəaliyyətində yeni mərhələ başladı.

1994-cü il 26 noyabrda Ulu Öndər Bakı Dövlət Universitetinin 75 illik, 1999-cu ildə isə 80 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı. 1994-cü ilin noyabrında Heydər Əliyev sarayında (Respublika sarayı) ümummilli lider Heydər Əliyevin iştirakı ilə Universitetin 75 illik yubileyi keçirildi.

Milli dövlətçiliyimizin bərpasından sonra (1991-ci il, 18 oktyabr) bütün sahələrdə olduğu kimi Bakı Dövlət Universitetinin yeni mərhələ fəaliyyətində də – yenidənqurma dövrü başladı.Təhsilin və elmin inkişafı ilə bağlı dövlət strategiyası və standartları müəyyən edilməyə, islahatlar aparılmağa start yarandı. Beləliklə, Ulu Öndərin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi Bakı Dövlət Universitetinin kollektivində də böyük ümidlər və inam oyatdı. Dövlət siyasəti olaraq təhsil sahəsində həyata keçirilən strateji xətt, digər təhsil ocaqları kimi Bakı Dövlət Universitetində də əsaslı islahatların aparılmasına şərait yaratdı, onun gələcək inkişafını təmin etdi [2, s.201].

1993-1994-cü tədris ilindən Bakı Dövlət Universitetində əsaslı islahatların, yenidənqurmaların aparılmasına başlanıldı.Beləki, 1994-cü ildə Beynəlxalq münasibətlər və beynəlxalq jurnalistika kafedrası yarandı. Həmin ildə geokimya, mineralogiya, fiziki elektronika ixtisasları açıldı. 1994-cü ilin sentyabr ayında isə Bakı Dövlət Universitetinin nəzdində Bakı Türk Liseyi təsis olundu.

1994-cü il sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı Dövlət Universitetinin 75 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı. Bu fərmana əsasən, həmin ilin (1994-cü il) noyabrın 26-da Respublika sarayında (indiki Heydər Əliyev sarayı-red)Universitetin 75 illiyi təntənəli şəkildə qeyd olundu.

Yubiley mərasimindəki nitqində ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin 75 illik fəaliyyətini yüksək qiymətləndirdi, bu təhsil məbədinin yaranmasını əlamətdar hadisə kimi dəyərləndirdi və qeyd etdi ki, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdı və dedi: *"…Biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük"*. Ümummilli lider Heydər Əliyev daha sonra nitqində söylədi:*"Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi-tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqlarının hamısı öz başlanğıcını Bakı Dövlət Universitetinindən götürmüşdür"*.

75 illik yubileydən sonra universitetdə əhəmiyyətli yeniliklər baş verdi.BDU Elmi Şurasının 28 oktyabr 1994-cü il tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı Dövlət Universitetinin Fəxri doktoru adına layiq görüldü.

1999-cu ildə BDU-nun yaradılmasının 80 illiyi tamam oldu.Ulu öndər Heydər Əliyev bu münasibətlə Universitet kollektivinə ünvanladığı təbrik məktubunda yazırdı: *"Azərbaycanın tərəqqisi, inkişafı, çiçəklənməsi uğrunda böyük əzmlə çalışan vətənpərvər ziyalıların çoxu bu milli təhsil ocağının yetirmələri olmuşdur. Universitet 80 illik tarixi ərzində respublikamızın elm, mədəniyyət və ədəbiyyat sahələrində görkəmli simalar bəxş etmişdir ... Diqqətə layiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş və bir mərkəz rolunu oynamışdır"* [3].

BDU-nun 80 illik yubeliyində Ümumilli lider Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycan xalqının XX əsrin əvvələrindən başlanmış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur.

Ümummilli lider: *"Azərbaycanın tərəqqisi, inkişafı və çiçəklənməsi uğrunda böyük əzmlə çalışan vətənpərvər ziyalıların çoxu bu milli təhsil ocağının yetirmələri olmuşdur. BDU – öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz yolunu oynamışdır. Biz inanırıq ki, BDU – kollektivi ölkəmizin inkişafı və xalqımızın tərəqqisi üçün əllərindən gələni əsirgəməyəcək Azərbaycan Respublikasının müstəqilliyinin, milli dövlətçiliyinin qorunub möhkəmləndirilməsi işinə sədaqətlə xidmət göstərəcək milli kadrların yetişdirilməsində var qüvvənizi sərf edəcəksiniz".*

Universitenin inkişafına, onun beynəlxalq əlaqələrinin daha da genişlənməsinə böyük qayğı və diqqətin nəticəsi idi ki, ölkə Prezidentinin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanına uyğun olaraq, Bakı Dövlət Universitetinə özünü idarəetmə prinsipi əsasında fəaliyyət göstərən təhsil müəssisəsi statusu verildi.

Bu dövrdə (2001-2002-ci tədrisilində) BDU-da professor-müəllim heyətinin sayı 1301 nəfər təşkil edirdi ki, onlardan 179 nəfəri elmlər doktoru, professor, 400 nəfəri elmlər namizədi (fəlsəfə doktoru) dosent idi [4, s.204].

Beləliklə, Ulu Öndərin Azərbaycanda Prezidentliyi -1993-2003-cü illərdə Bakı Dövlət Universitetinin fəaliyyət dövrü yenidənqurma, intibah, yüksəliş, elmin, təhsilin tərəqqisi kimi səciyyələnir. Bu dövrdə Universitet Ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti sayəsində şanlı, əhəmiyyətli uğurlara imza atmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev BDU-nun xalqımız, dövlətçiliyimiz və milli-mənəvi saflığımızın qorunması sahəsində tarixi xidmətlərini həmişə yüksək qiymətləndirmişdir.

Ulu Öndər qeyd edirdi ki, *"Azərbaycanda milli-azadlıq hərəkatının yaranması, inkişaf etməsi, tariximizin səhifələrinin təxribatdan, təhriflərdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olmasının dəyərləndirilməsi – bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur. Bu sahədə BDU-nun xidmətləri çox böyükdür".*

2003-cü ilin oktyabrında ümumxalq səsverməsi ilə Ulu Öndərin ən layiqli davamçısı, Heydər Əliyev məktəbinin yetirməsi İlham Əliyev Prezident seçildi.Xalqımız Ulu Öndərin fiziki itkisindən nə qədər çox kədərlənsə də, təskinliyini onda tapır ki, bu gün ümummilli lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Ölkənin itirilmiş torpaqları azad olub və ərazi bütövlüyü təmin olmuşdur. Dünya şöhrətli dahi şəxsiyyətdən *"Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*, - qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısı ola bildi. Ulu Öndərin verdiyi qiyməti və inamı daha yüksək səviyyədə doğrultdu. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Ölkə Prezidentin rəhbərliyi altında Azərbaycan özünün milli dövlətçiliyinin növbəti daha şərəfli mərhələsini yaşayır.

2003-cü ildən sonraki 20 ildən çox bir dövrdə bütün ölkənin həyatında bugünkü və gələcək inkişafı, dövlət müstəqilliyinin əbədiliyi, torpaqlarımızın mənfur erməni faşistlərindən azad olması,

ölkəmizin ərazi bütövlüyü təmin edilməsi sahəsində misilsiz işlər görüldü, düşməndən azad olunmuş vətən torpaqlarında sürətli quruculuq işlərinə, torpaqlarından qaçqın düşmüş vətəndaşlarımızın öz torpaqlarına qayıdışı başladı. Bütün bunlarla yanaşı respublikada elm və təhsilin inkişafına, o cümlədən Bakı Dövlət Universitetinə, onun müasir təhsil kompleksinə çevrilməsinə, dünyanın müasir universitetləri səviyyəsinə qaldırılmasına xüsusi diqqət və qayğı göstərilməyə başlandı.

2004-cü ildə İqtisadiyyat kafedrası ləğv edilərək, onun bazasında Ümumi iqtisadiyyat və İqtisadi nəzəriyyə kafedraları, Sosial elmlər və psixologiya fakültəsində Fəlsəfə və Sosiologiya kafedrası ləğv edilərək, onun bazasında Sosiologiya kafedrası, Jurnalistika fakültəsində Beynəlxalq jurnalistika, Kimya fakültəsində Ekoloji kimya, Biologiya fakültəsində Torpaqşünaslıq, Şərqşünaslıq fakültəsində Uzaq Şərq dilləri və ədəbiyyatı kafedraları yaradılmışdır [4, 206].

Qeyd edək ki, Filologiya, Coğrafiya, Fizika, Tarix, Hüquq, Kimya və digər fakültələrin strukturlarında islahatlar aparıldı, yeni kafedralar və yeni strukturlar yaradıldı. 2011-ci ildə Türk və Qafqaz xalqları kafedrasının bazası əsasında müstəqil Türk xalqları tarixi və Qafqaz xalqları tarixi kafedraları, Geologiya kafedrasının strukturuna daxil olan Paleontologiya, tarixi geologiya və ümumi geologiya kafedraları birləşdirilərək vahid ümumi və tarixi geologiya kafedrası yaradıldı. Həmçinin, 2011-ci ildə Kimya, Coğrafiya və Biologiya fakültələrinin potensialı əsasında Ekologiya və torpaqşünaslıq fakültəsi yaradıldı.

"Azərbaycan – 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasına uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2016-ci il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı BDU-nun tabeliyinə verildi. Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2017-ci tarixli sərəncamına əsasən, Bakı Dövlət Universitetinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu verildi.

Bakı Dövlət Universitetində ali təhsilin hər üç-bakalavriat, magistratura və doktorantura səviyyəsində kadr hazırlığı Avropa Kredit Transfer Sisteminə uyğunlaşdırılmışdır.

1919-cu ildə 44 əməkdaşla fəaliyyətə başlayan universitetdə hazırda (2024-cü ildə) 16 fakültə, müxtəlif elmi istiqamətlərdə ali təhsilin bakalavriatura səviyyəsində 66 ixtisas üzrə 23 mindən çox, magistratura səviyyəsində 235 ixtisaslaşma üzrə 1553 nəfər təhsil alır. Həmçinin, elmi kadrların hazırlığı sahəsində həyata keçirilən tədbirlərə müvafiq olaraq,doktorantura səviyyəsində 114 ixtisas üzrə 700 nəfərdən çox doktorant təhsilini davam etdirir [5].

Universitet tələbələrinin təlim-tərbiyəsi ilə 122 kafedra, 1500 nəfərdən çox professor-müəllim məşğul olur. Hazırda Bakı Dövlət Universitetində 300 nəfərdən çox elmlər doktoru, professor, 800 nəfərdən çox fəlsəfə doktoru, dosent 23 min nəfərdən çox tələbənin təlim-tərbiyyəsi və elmi tədqiqatla məşğuldurlar. 105 il ərzində BDU-nun 200 min nəfərdən çox yüksək ixtisaslı məzun bitirmişdir.

2006-2009-cu illərdə BDU-nun bütün fakültələrində I kurslarda kredit sistemi tətbiq edildi. 2008-ci ildə Yeni tədris korpusu (3№-li) istifadəyə verildi. Hazırda bu korpusda Tətbiqi riyaziyyat və kibernetika, Mexanika-riyaziyyat və Tarix fakültəsi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 aprel 2009-cu il tarixli Sərəncamına əsasən BDU-nun 90 illiyi qeyd olundu.Yubiley mərasimi 2009-cu il noyabrın 2-də keçirildi [6].

Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BDU kollektivini təbrik edərək dedi:*"Bakı Dövlət Universitetinin çox gözəl və uzun tarixi vardır. 1919-ci ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühum rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqiliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən təsis edilmişdir. Bu, çox düşünülmüş və uzaqgörən bir addım idi... Azərbaycanda savadsızlığın aradan qaldırılması və intellektual potensialın gücləndirilməsi üçün Universitetin yaradılması çox mühum hadisə olmuşdur... Düzdür, o zaman müəyyən ideoloji çərçivələri daxilində fəaliyyət göstərmişdir. Ancaq buna baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsil inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühum rol oynamışdır. Bu rol bu gün da davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir.Bu bir daha onu göstərir ki, Universitetin çox zəngin ənənələri, çox böyük potensialı, professor-müəllim heyətinin təcrübəsi, tələbələrin oxuması və təhsilə verdikləri önəm vardır ... Bakı Dövlət Universiteti*

*müxtəlif dövrlərdə Azərbaycanın hərtərəfli inkişafı üçün öz dəyərli töhfələrini vermişdir"* [4, s.210-211].

Ölkə Prezidenti xüsusi olaraq vurğuladı ki, xalqımızın ümummilli lideri Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu olub və Azərbaycanda hakimiyyətdə də olduğu bütün dövrlərdə Bakı Dövlət Universitetinin inkişafı üçün çox böyük diqqət və qayğı göstərmişdir. Ulu Öndər Universitetin ən mühum əhəmiyyət kəsb edən tədbirlərində iştirak etmiş və geniş nitq söyləmişdir.

BDU-nun 90 illik yubileyindən keçən illərdə təhsilin və elmin inkişafına və təhsilin dünyanın qabaqcıl təcrübəsinə uyğun olaraq təkmilləşdirilməsinə, dövlət qayğısı, diqqəti daha da artırılmışdır.

Ölkə başçısı onu da qeyd etmişdir ki, təhsilin səviyyəsinin qaldırılması üçün hələ çox işlər görülməlidir, ən mütərəqqi təcrübənin öyrənilməsi və tətbiqi ilə yanaşı, gənclərin milli vətənpərvərlik ruhunda tərbiyyə olunması işinə, yüksək ixtisaslı, dərin biliklərə yiyələn, dünya standartlarına cavab verə bilən mütəxəssislərin hazırlanması işinə diqqət artırılmalıdır.

Sonda Azərbaycan Prezidenti İlham Əliyev dedi: *"Azərbaycanı irəliyə aparan çox gözəl və milli ruhda böyüyən nəsil yetişir. Müəllimlərin, əlbəttə ki, bu işdə rolu, bəlkə də, ən önəmli roldur. Çünki, müəllimlər tələbələrə öz biliyini çatdırırlar. Eyni zamanda, gənc nəslin hansı formada böyüməsinə də müəllimlərin böyük təsiri vardır. Mən bu fürsətdən istifadə edərək Bakı Dövlət Universitetinin bütün professor-müəllim heyətinə uzun illər çox vacib funksiya daşıdıqlarına görə öz minnətdarlığımı bildirmək istəyirəm"* [6].

Prezidentin BDU-nun 90 illik yubileyindəki nitqi müasir dövrdə Azərbaycanın, o cümlədən Bakı Dövlət Universitetində elm və təhsil sisteminin gələcək inkişafının əsas strategiyasını, onun məqsəd və vəzifələrini, mahiyyətini, həyata keçirilmə yollarını və üsullarını dəqiq müəyyənləşdirildi, onun perspektivləri açıqladı. Yubiley mərasimində Prezident İlham Əliyevə Bakı Dövlət Universitetinin Fəxri doktoru diplomu təqdim olundu [4, 212-213].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" 14 noyabr 2017-ci il sərəncamı və sərəncama uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 may 2018-ci il tarixli qərarı ilə Universitetin 100 illik yubileyinə həsr olunmuş Tədbirlər planı Bakı Dövlət Universitetinə çox böyük diqqət və qayğısının ifadəsi və göstəricisi idi.

Plana uyğun olaraq 2019-cu il 28-29 mayda Rumıniyanın paytaxtı Buxarest şəhərində Qara Dəniz Universitetləri şəbəkəsi Baş Assambleyasının və Buxarest Universitetinin təşkilatçılığı ilə 2019-cu il12 iyun tarixində Paris şəhərində, UNESCO-nun Baş qərargahında və digər nüfuzlu təşkilatlarda, o cümlədən Avropanın mədəniyyət mərkəzlərindən biri olan Vyana şəhərində də,BDU-nun keçdiyi şərəfli yola, onun fəaliyyətinə, Azərbaycanın ictimai-siyasi həyatında, ölkədə elmin və təhsilin inkişafındakı roluna diqqət çəkildi. Universitetin təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də elmi nailiyyətlərin əldə edilməsində xüsusi rolu olduğu göstərildi. Həmçinin, sülhün, millətlərarası dialoqun, mədəni müxtəlifliyin, elmi əməkdaşlığın qurulması və inkişafında Bakı Dövlət Universitetinin rolu xüsusi qeyd olundu.

Yubiley mərasimlərində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Universitetinin keçdiyi şərəfli yol, onun uğurları, nailiyyətləri, Azərbaycanda elmin, təhsilin və milli mədəniyyətimizin inkişafındakı rolundan, yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyətindən danışmaqla yanası, Universitetin bugünkü planları və yaxın gələcək üçün qarşıya qoyulan hədəfləri barədə ətraflı məlumat verdi.

BDU-nun 100 illik yubiley mərasimlərində çıxış edənlər Azərbaycanın BDU-nun 100 illik tarixindən, onun nailiyatlərindən danışdılar. BDU-nun milli dövlətimizin ən böyük və əsas sərvətindən biri olduğu, onun müsəlman Şərqində ilk Avropa tipli məktəb olduğu vurğulandı.

Həmçinin, Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı Mingəçevir Dövlət Universitetində, Azərbaycan Tibb Universitetində, Azərbaycan Dövlət Universitetində, Sumqayıt Dövlət Universitetində, Azərbaycan Pedaqoji Universitetində, Bakı Mühəndislik Universitetində, Lənkəran Dövlət Universitetində, BDU-nun Qazax filialında və bir sıra digər elm, təhsil və mədəniyyət ocaqlarında konfranslar, dəyirmi masalar və tədbirlər təşkil edilmişdir.

Son beş ildə Bakı Dövlət Universitetində Dünya standartlarına cavab verən iş şəraiti yaradılması, professor-müəllim heyətinin və tələbələrin modern auditoriyalarla təmin olunması, elmin və təhsilin səviyyəsinin müasir tələblərə uyğun səviyyəyə çatdırılması və d. sahələrdə ciddi islahatlar və tədbirlər keçirilmiş və bu gündə bu istiqamətdə işlər uğurla davam etdirilir. Müasir tələblərə cavab verən yeni laboratoriyalar, elmi tədqiqat mərkəzləri, kitabxana, auditoriyalar və s. yaradılır. Universitetin maddi-texniki bazasının yaxşılaşdırılması və möhkəmləndirilməsi sahəsində əhəmiyyətli işlər görülməkdədir.

2023-2024-cü tədris ilində BDU-nun 2 nömrəli tədris korpusu müasir standartlara cavab verən səviyyədə yenidən qurulmuş və professor-müəllim və tələbə kollektivinin istifadəsinə verilmişdir.

Şərqdə, müsəlman-türk dünyasında ilk hüquqi-demokratik respublika olan AXC-nın bu il 106 illiyi qeyd olundu. Bununla müstəqil milli dövlətçiliyimiz bərpa oldu.AXC 23 aylıq fəaliyyəti dövründə zəngin dövlət qurcuculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoydu; dövlət quruculuğu; sosial-iqtisadi, ordu, mədəniyyət quruculuğu sahələrində böyük və əhəmiyyətli işlər görüldü:

- Yeni qurulan demokratik respublikamız defakto və beynəlxalq aləmdə tanındı;
- Dövlət atributları: himnimiz, dövlət bayrağımız və gerbimiz qəbul edildi;
- Parlamentin, ordunun və digər çox vacib təsisatlar yaradıldı;
- O, cümlədən xalqımızın milli tarixində misilsiz rol oynayan BDU təsis edildi.

“Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında” 2017-ci il 14 noyabr tarixli sərəncamda deyilirdi: “Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən böyük nailiyyətlərlə zəngin şərəfli yol keçmişdir. Daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirən Universitetinin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özünüdərk prosesinin sürətləndirilməsinə təqdirəlayiq xidmətləri vardır”[7].

Göründüyü kimi Sərəncamda qeyd olunanlar Milli mənəvi dəyərlərə, elmə və təhsilə, mədəniyyətə dövlətin və Respublika Prezidentinin qayğısı və diqqətinin parlaq təzahürüdür:

- Qeyd olunan tarixi sərəncam və 100 illik yubileydə ölkə Prezidenti İlham Əliyevin nitqində irəli sürülən və söylənilən dəyərli fikirlər – Azərbaycan elm-təhsil tarixinin daha dərindən araşdırılmasını;
- BDU-nun ölkəmizin intellektual potensialın inkişafında; həmçinin elm, təhsil və mədəniyyətimizin tərəqqəsi yolunda xidmətlərinin hər tərəfli dəyərləndirilməsini;
- BDU-nun milli dövlətçilik düşüncəsi kontekstində xidmətlərinin yenidən dəyərləndirilməsini;
- Bu təhsil məbədinin zəngin tarixi-mədəni irsinin dərindən öyrənilməsini və b. prinsipal məsələləri qarşıya qoymuşdur.

AR Prezidenti İlham Əliyev qeyd etdi ki, Bakı Dövlət Universitetinin yarandığı vaxtdan:

1. Ölkəmizdə bir çox ali məktəblərin və elm-tədqiqat müəssisələrinin yaranmasında müstəsna rol oynamışdır;
2. Elmin müxtəlif sahələrinin yaranmasında və inkişafında misilsiz xidmətləri olmuşdur;
3. BDU-nun xalqımızın milli-ənənələrinin, milli mənlik şüurunun, milli özünüdərkinin inkişafında, gənclərimizin milli vətənpərvərlik və dövlətçiliyə sadiqlik ruhunda tərbiyə olunmasında xidmətləri hüdudsuzdur;
4. BDU – Azərbaycanın çağdaş təhsil və elm tarixində müstəsna yeri var.

Bu il, 2024-cü ilin sentyabrında BDU-nun 105 ili tamam oldu. 100 illikdə keçən 5 ildə Universitetdə çox böyük irəliləyişlər, uğurlar əldə edilmiş, elmin, təhsilin səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmış, Universitetin maddi imkanları, texniki bazası xeyli güclənmişdir. Bütün tədris binaları, auditoriyaların tədrisə, elmi tədqiqatların daha yaxşı səviyyədə aparılmasına uyğün yeniləşdirilmişdir. Universitet ərazisində müasir standartlara cavab verən strukturlar, mədəni-kütləvi tədbirlərin keçirilməsi və istirahət, iaşə və idman-sağlamlıq obyektləri yaradılmışdır.

Tarix öz kökünə, keçmişinə qırılmaz tellərlə bağlı olan şəxsiyyətləri az yetirməyib. Lakin, ümumilli lider Heydər Əliyev kimi dahi və dünyaşöhrətli şəxsiyyətinin böyüklüyü ilə yanaşı sədaqə-

tinin, xalqına, torpağına bağlılığının sonsuzluğu ilə ucalan, xüsusilə, zirvədə dayanan insanlara az-az rast gəlmək olar. Heydər Əliyev tarix yazan şəxsiyyətdir. Ümumilli lider Heydər Əliyev sədaqətinin böyüklüyü onun vətənə xalqa məhəbbətinin gücündən, qüdrətindən irəli gəlir. Bu böyük dahi şəxsiyyəti, görkəmli dövlət xadimini, dünyamiqyaslı siyasətçini əlçatmaz zirvəyə yüksəldən də, onun ecazkar qüdrətini yaradan da nə hüdud tanıyan, nə də tükənmək bilən vətən məhəbbətidir [8].

Bakı Dövlət Universitetinin Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin milli mənliyinin, dövlətçiliyinin təşəkkülündə və inkişafında milli kadrların yetişdirilməsində xidmətini daim yüksək qiymətləndirmişdir.

Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülündə böyük töhfələr vermişdir. Respublikada yaradıcı elmi təfəkkürün innovativ ideyalar əsasında formalaşdırılması, hazırlıqlı kadr potensialının davamlı təkmilləşdirilməsi və elmi-intellektual mühitin inkişaf səviyyəsinin daha da yüksəldilməsi, o cümlədən Azərbaycan xalqının tarixi-mədəni dəyərlərinin və mənəvi-əxlaqı sərvətlərinin qorunub yaşadılması universitetin dünya təhsil məkanına inteqrasiya yolu seçməklə göstərdiyi bugünkü çoxşaxəli, geniş fəaliyyətin başlıca istiqamətlərini təşkil edir.

Əsrin 50-ci illərinin əvvəllərində (1951-1957) Bakı Dövlət Universiteti öz tələbələri sırasına Heydər Əlirza oğlu Əliyev adlı gələcəyin böyük, dahi şəxsiyyəti, müstəqil Azərbaycanın qurucusu, dünya miqyaslı siyasətçini, xalqımızın, müstəqilliyimizin xilaskarını qəbul etdi. Elə həmin vaxtdan Bakı Dövlət Universiteti ilə, Azərbaycanın ilk ali təhsil məbədi ilə xalqımızın dahi şəxsiyyəti arasında qırılmaz tellərlə bağlı olan münasibətlərin əsası qoyuldu.

1957-ci ildə Bakı Dövlət Universitetində təhsilini başa vurduqdan sonra bilavasitə peşə fəaliyyəti elm və təhsillə bir başa bağlı olmasa da, ulu öndərin universitetlə əlaqəsi heç zaman ara verməyib. Siyasi zirvələrə doğru uğurla irəlilədikcə onun ali təhsil aldığı Bakı Dövlət Universiteti ilə əlaqələri daha da güclənib.

Ulu öndərin "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir" sözləri universitetə yarandığı vaxtdan bu günədək verilən ən böyük qiymətidir. Ümummilli lider Azərbaycan elminin, maarifinin və təhsilinin inkişafında müstəsna rol oynayan universitetimizin yaranmasını xalqımızın tarixində ən əlamətdar mədəni hadisə hesab etmişdir və qeyd edirdi ki, Bakı Dövlət Universiteti Azərbaycan Demokratik Respublikasının qiymətli yadigarıdır və Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Bakı Dövlət Universitetində inkişaf etmişdir.

Hər bir xalqın milli mənliyinin, milli şüurunun formalaşması onun milli-mənəvi dəyərlərinin, elminin, təhsilinin inkişafı ilə şərtlənir. Cəmiyyətin ən mühüm göstəricilərindən biri elmin, maarifin, təhsilin və mədəniyyətinin inkişafı hesab olunur. Millətin etnik birlik kimi formalaşması sosial-mədəni proseslərin təsir dairəsindən kənardamümkün olmadığından, milli-mənəvi və mədəni dəyərlərin yaranmasımənəvi sərvətlərin formalaşması milli birliyin vacib ünsürü keyfiyyətində qavranılır. Buna görə də cəmiyyətdə böyük rəqabət mübarizəsində kifayətqədər müqavimət gücü toplamaq, özünün yaşamaq qabiliyyətini təmin etmək üçün xalqlar dünyanı spesifik şəkildə qavramağın milli formaları sistemini yaratmaqla özünəməxsus mədəni dəyərlər və sərvətlər kompleksini formalaşdırmaq zərurəti ilə qarşılaşırlar. Bu prosesdə çox mühum rol universitetlərə, elm və təhsil müəssisələrinə aid olmuşdur. Onu da qeyd edək ki, antik yunan akademiyalarının, qədim təhsil ocaqları, o cümlədən universitetlərin yaranması bu zərurətdən irəli gəlmişdir.

Uzunmüddətli işğallar, ədalitsizlik ucbatından, dövlətçiliyimizin məhv edilməsi, müstəqilliyinin itirilməsi ucbatından Azərbaycan xalqı milli birliyin əsas amillərindən hesab edilən milli təhsil sistemini və sivil mənəvi tərbiyə formalarını yaratmaq mümkün olmamışdır.

Uzun illərdən sonra yazlnız 1918-ci il 28 mayda müstəqillik qazanaraq öz milli dövlətini – Azərbaycan Xalq Cümhuriyyətini elan edən azərbaycan xalqı milli və ictimai tərəqqidə elmin, təhsilin rolunu həqiqi mənada qiymətləndirmək imkanı etdi. Məhz buna görə də, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə həyata keçirdiyi ən mühüm tədbirlərdən biri 1919-cu ilin sentyabrında Bakı Dövlət Universitetinin Azərbaycanın ilk dünyəvi ali təhsil ocağının yaradılması oldu.

Ulu öndər qeyd edirdi ki, Bakı Dövlət Universiteti qısa ömürlü Azərbaycan Demokratik Respublikasının qiymətli yadigarıdır. Bakı Dövlət Universitetinin keçdiyi 105 illik yola nəzər salarkən

belə bir qənaətə gəlinir ki, Azərbaycan cəmiyyətini bu ali təhsil ocağından ayrılıqda təsəvvür etmək mümkün deyildir.

Heydər Əliyev Bakı Dövlət Universitetinin yetirdiyi ən böyük şəxsiyyətdir. Ulu öndər 1957-ci ildə universitet təhsilini başa vurduqdan sonra vəzifədən-vəzifəyə ucaldıqca, şöhrətin zirvəsinə doğru uğurla irəlilədikcə onun təhsil aldığı Bakı Dövlət Universiteti ilə bağlılığı daha da güclənib. Onu da qətiyyətlə qeyd etmək olar ki, Bakı Dövlət Universitetinə bu 105 ildə ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. *"Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir"* [9, s.61] sözləri ümumilli liderin ürəyindən süzülüb gələn dəyərdir.

Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Bakı Dövlət Universitetində təhsil aldığı illər, sonrakı illər bu təhsil ocağı ilə sıx əlaqələri, 50 illiyində (1 noyabr 1969-cu il), 75 illik yubileyində (26 noyabr 1994-cü il), 80 illik yubileyində (1999-cu il) və Heydər Əliyevin Türkmənistan Prezidenti Saparmurad Niyazova BDU-nun Fəxri Doktoru Diplomunun təqdimatı (1996-cı il 18 mart), Türkiyənin Baş Naziri Məsud Yılmaza BDU-nun Fəxri Doktoru Diplomunun təqdimatı (1996-cı il 15 aprel), Özbəkistan Respublikasının Prezidenti İslam Kərimova BDU-nun Fəxri Doktoru Diplomunun təqdimatı (1996-cı il 27 may), Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadzeye BDU-nun Fəxri Doktoru Diplomunun təqdimatı və d. mərasimlərdə çıxışları və nitqləri Bakı Dövlət Universitetinin şanlı tarixinin böyük və əlamətdar, silinməz bir mərhələni təşkil edir.

Heydər Əliyev şəxsiyyətinin formalaşmasında universitetdə təhsil aldığı illər və o mühit xüsusi bir mərhələni təşkil edir. Heydər Əliyev dahiliyini səciyyələndirən cəhətlər hansılardır? İlk növbədə Ulu Öndərin böyük çoxluğu heyrətləndirən fitri istedadı dərin və hərtərəfli bilikləri,yüksək,sınmaz milli ruhu, tarixi köklərə bağlılığı, milli ənənələrə,vətən,torpaq təəssübkeşliyi, prinsipallığı, qətiyyətliyivə d. xüsusiyyətlər ilə fərqlənən xarakterinin olması.

Bakı Dövlət Universiteti fəaliyyəti dövründə xalqımızın qarşısında əvəzsiz xidmətlər göstərmişdir. Bakı Dövlət Universiteti öz fəliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır [10].

Ümummilli lider Heydər Əliyev 11 fevral 2000-ci il tarixli fərmanla BDU-nun professor-müəllimlərindən 17 nəfər "Şöhrət" ordeni, 18 nəfər "Tərəqqi" medalı ilə təltif olundu. 13 nəfər Əməkdar Elm xadimi, 21 nəfər Əməkdar müəllim fəxri adlarına layiq görüldü [11].

Azərbaycanın, xalqımızın milli-mənəvi dəyərlərinə, tarixinə, elm və təhsilinə, milli mədəniyyətinə daim qayğı göstərən ümummilli lider Heydər Əliyev 1999-cu il iyunun 15-də verilmiş sərəncamı ilə "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar proqramı" təsdiq edilmişdir [12].

2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" ikinci bir tarixi fərman imzaladı. Bu fərmanla da təhsil islahatı yeni bir mərhələyə daxil oldu. Bu tarixi fərmanın tələblərindən bəhrələnən tarix fakültəsi dünya – Avropa təcrübəsindən bəhrələnərək elmin və təhsilin dünya birliyinə inteqrasiyası üçün əhəmiyyətli addımlar atır.

1919-cu ilin sentyabrında təsis edilən və noyabrın 15-də fəaliyyətə başlayan Tarix fakültəsi BDU-nun yaşıdıdır. 1919-cu ildə Tarix-Filologiya fakültəsi adı ilə ilk addımlarını atmağa başlayan Tarix fakültəsi sonralar müxtəlif adlar altında (İctimai elmlər fakültəsi, Pedaqoji fakültə) fəaliyyətini davam etdirib və 1934-cü ildə müstəqil fakültəyə çevrilib. Fakültə təsis olunarkən 509 tələbə, 95 azad dinləyici ilə fəaliyyətə başlayıb. Bu gün Tarix fakültəsində bakalavriatura üzrə əyani 1889, qiyabi 73, magistratura üzrə 157, doktorantura üzrə isə 60 nəfər təhsil alır. Beləliklə, fakültədə təhsil alanların sayı 2219 nəfərdir.

Bakı Dövlət Universiteti yaranarkən onun ilk iki fakültəsindən biri olan Tarix fakültəsində 105 ildə şərəfli inkişaf yolu keçmişdir. Azərbaycanda tarix elminin inkişafında, tarixçi kadrların yetişdirilməsinə hazırlanmasına öz töhfəsini vermişdir. Bakı Dövlət Universitetinin 75 illiyi ilə əlaqədar Ümummilli lider qeyd etmişdir ki, *"Bakı Dövlət Universitetinin əsas fakültələri - Tarix fakültəsi, Filologiya fakültəsi,Fəlsəfə fakültəsi,yəni bütün humanitar fakültələr Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur"* [13, s.5].

Tarix fakültəsi Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatı, dövlət quruculuğu, dövlət idarəetmə strukturları, elm və təhsil sistemi üçün yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm

töhfələr verir. Təhsil standartları proqramına uyğun olaraq tarix və müvafiq elmlərin tədrisini uğurla həyata keçirən Tarix fakültəsi Azərbaycanın elm və təhsil tarixində, ixtisaslı kadr potensialının zənginləşməsində, milli-mənəvi şüurun formalaşmasında, ölkəmizin çoxminillik, zəngin tarixi və mədəni irsinin, əsrlərlə formalaşmış milli dəyərlərimizin tədqiqində, araşdırılmasında əhəmiyyətli rol oynayır. Fakültə hazırki dövrün tələblərinə uyğun olaraq tədrisin təşkili və təlim prosesinin idarəçiliyində innovativ yanaşmalara, müasir və qabaqcıl təcrübələrin tətbiqinə xüsusi önəm verir.

1919-1920-ci illərdə Tarix fakültəsində 13 professor, 5 dosent, müəllim fəaliyyət göstərirdisə, bu gün fakültədə 20 professor, 49 dosent, 10 baş müəllim, 5 müəllim çalışır. Tarix fakültəsində iki Elmi Tədqiqat Laboratoriyası və bir elmi mərkəz var.

Tarix fakültəsi şərəfli inkişaf yolu keçib və bu illərdə tarix elminin, milli ideologiyanın, milli mənlik şüurunun formalaşmasında və inkişafında müstəsna rol oynayıb, milli mədəniyyətimizin inkişafına milli-mənəvi ənənələrimizin qorunub saxlanmasına, milli vətənpərvərlik ruhunun yüksəldilməsinə güclü təkan verib, tarixçi kadrlar hazırlayan elmi mərkəzə çevrilib.

Azərbaycanın minlərlə görkəmli dövlət və siyasi-ictimai xadimi Tarix fakültəsinin yetişdirmələridir. Tarix fakultəsinin dünya şöhrətli məzunu, dahi şəxsiyyət, görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev də BDU-nun Tarix fakültəsinin məzunudur. Ümumilli Lider Heydər Əliyev BDU-nu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırmışdır.

2008-ci il sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetində olarkən Tarix fakültəsində də olub. Prezident İlham Əliyevin Tarix fakültəsinin də yerləşdiyi yeni tədris korpusunun açılışında iştirak etməsi, Azərbaycan xalqının ümummilli lideri, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevə həsr edilmiş stendlə, fakültənin kafedraları, auditoriyaları, akt zalı ilə tanış olması dövlət rəhbərinin Universitetə və onun yaşıdı olan Tarix fakültəsinə xüsusi önəm verməsinin və qayğısının bariz nümunəsidir.

Fəaliyyət göstərdiyi ilk illərdə fakultədə dünya şöhrətli alimlər, akademiklər V.V.Bartold, N.Y. Maar, A.Y.Krımski, Ə.Qubaydullin, B.V.Çobanzadə, İ. M.Cəfərzadə və başqaları dərsdeyib.

1919-cu ildən başlayaraq ötən əsrin 40-cı illərinin sonlarınadək Tarix fakültəsinə Nikolay Aleksandroviç Dubrovski (fakültənin ilk dekanı), Leonid Aleksandroviç İşkov, Aleksandr Vasilyeviç Baqri, Tağı Abbas oğlu Şahbazi, Pyotr Petroviç Fridolin, Boris NikolayeviçTixomirov kimi görkəmli alimlər başçılıq edib.

Sonrakı illərdə fakültəyə Zülfəli İbrahimov (1948-1949), Məmməd Şıxlı (1949-1950), Əliövsət Quliyev (1950-1952), Qəzənfər Mehdiyev (1953-1957), Məmməd Əfəndiyev (1957-1960), Məlik Orucov (1960-1964), Səidə İmanzadə, Xəlil Əlimirzəyev (1964-1966), Zakir Abdullayev (1967-1970), Məmməd Qazıyev (1970-1977), Mahal Məmmədov (1977-1980), Miryusif Mirhadıyev (1980-1986), Yaqub Mahmudov (1986-1990; 1994-2005), Eldar İsmayılov (1991-1994), Sani Hacıyev (2005-2011), Azad Rzayev(2012-2019) rəhbərlik edib. 2019-cu ildən fakültənin dekanı professor İbrahim Zeynalovdur.

Tarix fakültəsində ilk əhəmiyyətli struktur dəyişikliyi 1941-ci ildə "Azərbaycan tarixi" kafedrasının yaradılması olub. XX əsrin 70-80-ci illərində Tarix fakültəsinin inkişafında yeni mərhələ başlayıb: yeni kafedralar, elmi-tədqiqat laboratoriyaları yaradılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni dövrün tələbinə uyğun olaraq Tarix fakültəsinin həyatında, onun strukturunda ciddi dəyişikliklər baş verib, islahatlar aparılıb. Əvvəlki kafedraların bazasında yeni kafedralar təşkil olunub.

Hazırda bakalavriatura səviyyəsində fakültədə aşağıdakı ixtisaslar və istiqamətlər üzrə tədris həyata keçirilir: "Tarix", "Tarix müəllimliyi", "Regionşünaslıq (Qafqaz üzrə)", "Regionşünaslıq (Amerika üzrə)", qiyabi təhsil üzrə "Tarix" və əlavə təhsil. Magistratura üzrə 26 ixtisaslaşmada tədris həyata keçirilir.

Doktorantura və dissertantura səviyyəsində isə 8 ixtisas üzrə tədqiqatlar aparılır: "Vətən tarixi", "Ümumi tarix", "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları", "Ölkələr tarixi", "Tarixi coğrafiya", "Mədəni antropologiya", "Beynəlxalq münasibətlər", "Etnoqrafiya və etnologiya". Fakültədə "Vətən tarixi" və "Ümumi tarix" ixtisasları üzrə Dissertasiya Şurası da fəaliyyət göstərir.

Son illərdə tədris olunan ixtisaslar üzrə dərslik, dərs vəsaiti, proqramların hazırlanması və nəşri işində böyük irəliləyişlər var. Xarici nüfuzlu jurnallarda, o cümlədən "Scopus" məlumat bazasında indekslənmiş jurnallarda tarixçi alimlərin elmi əsərlərinin çap olunmasında xeyli irəliləyiş var.

Fakültədə müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ilə bağlı ümumilli lider Heydər Əliyevin misilsiz fəaliyyəti, həmçinin Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu daxili-xarici siyasəti, ərazi bütövlüyümüzün təmin edilməsi, böyük Zəfərin qazanılmasında tarixi rolunun dərindən araşdırılması və tədris olunması mühüm bir vəzifə kimi həyata keçirilir.

Hazırda Tarix fakültəsində 10 kafedra: Azərbaycan tarixi (humanitar fakültələr üzrə), Azərbaycan tarixi (təbiət fakültələri üzrə), Arxeologiya və etnoqrafiya, Asiya və Afrika ölkələri tarixi, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi, Qədim dünya və orta əsrlər tarixi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika, Slavyan ölkələri tarixi, Türk xalqları tarixi, Qafqaz xalqları tarixi kafedraları fəaliyyət göstərir.

Fakültədə Arxeologiya və etnoqrafiya kafedrasının nəzdində "Azərbaycanın maddi mədəniyyət tarixi" və Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının nəzdində"Dünya azərbaycanlıları: tarixi demoqrafiya" elmi-tədqiqat laboratoriyaları və Tarix, Dil və Metodika Mərkəzi fəaliyyət göstərir.

Son vaxtlar təhsilimizin müasir tələblərə uyğun, hərtərəfli inkişafı üçün geniş islahatlar proqramı həyata keçirilməyə başlanıb. Tarix fakültəsinin müvafiq kafedralarında qabaqcıl dünya təcrübəsinə əsaslanan bu proqramın ən mühüm tərkib hissələrindən biri də xalqımızın tarixi keçmişini, maddi və mənəvi mədəniyyətini hərtərəfli və dərindən araşdırmaqdan ibarətdir.Müasir Azərbaycan tarixinin yenidən, obyektiv, subyektivizmə yolvermədən yazılması, araşdırılması Vətən tarixçilərinin qarşısında duran başlıca vəzifədir.

Hər bir elm sahəsinin inkişafını şərtləndirən amillərdən biri də həmin sahə üzrə yüksəkixtisaslı kadr hazırlığının düzgün təşkilidir. Bu baxımdan tarix fakultəsində arxeoloq kadr hazırlığı qənaətbəxş deyil. Halbuki Paleolitdən Orta əsrlərədək müxtəlif tipli, çoxsaylı arxeoloji abidələrə sahib olan Azərbaycan Respublikasında peşəkar arxeoloq kadrların hazırlanmasına böyük ehtiyac var. Xüsusilə, işğaldan azad olunmuş Qarabağ və Zəngəzurda standartlar səviyyəsində geniş miqyaslı arxeoloji tədqiqatların aparılması, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması fakultədə arxeologiya ixtisasının açılması qarşımızda duran başlıca məqsəddir. Bu sahədə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, Türkiyə, Qazaxıstan, Özbəkistan universitetlərinin Arxeologiya və kafedraları ilə əlaqələr yaradılır.

Magistratura pilləsində "Türk dünyası tarixi", "Ölkəşünaslıq (Özbəkistan üzrə)", "Ölkəşünaslıq (Qazaxıstan üzrə)" ixtisaslarında Qırğızıstan Respublikasının Y. Balasaqunlu adına Milli Universiteti və Qırğız Türk Manas Universiteti ilə ikili diplom proqramının həyata keçirilməsi üçün tədris proqramlarının uyğunlaşdırılması istiqamətində danışıqların davam etdirilməsi nəzərdə tutulur.

Perspektivdə Bakı Dövlət Universitetinin Tarix fakultəsi ilə və Ural Federal Universitetinin Tarix fakültələrinin birgə təşkilatçılığı ilə elmi seminar, konfransların keçirilməsi, tələbə müəllimlər arasında təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

Həmçinin, türkdilli ölkələrin universitetlərinin müvafiq fakültələri ilə birgə "Türk dünyası: ortaq tarixi mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış" mövzusunda II Beynəlxalq elmi konfransın, elmi seminarların keçirilməsi, tələbələr, magistrantlar və müəllimlər arasında təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

Fakültədə ikili diplom proqramının həyata keçirilməsi istiqamətində başlamış işləri sürətləndirmək və başa çatdırmaq, həmçinin "Arxeologiya" ixtisası üzrə bakalavriatura səviyyəsində tələbə qəbuluna nail olmaq üçün aidiyyatı qurumlar qarşısında məsələ qaldırmaq planlaşdırılır.

Bakı Dövlət Universitetinin 105 illik yubileyi ərəfəsində Tarix fakültəsində müstəqil Azərbaycanımız üçün kamil mütəxəssislər hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi elmi tədqiqat və araşdırmaların daha ciddi, uğurlu elmi nəticələrə və yeniliklərə gətirib çıxarması istiqamətində məqsədyönlü işlər aparılır. Bu işlər çərçivəsində tələbələrin fərdi və kollektiv bilik və bacarıqlarının

inkişaf etdirilməsinə təsir edən üsullardan istifadəyə geniş diqqət ayrılır, onların elmi tədqiqat işinə maraqlarını artırmaq üçün tədbirlər həyata keçirilir.

Son illər Universitetlə yanaşı, Tarix fakültəsinin də maddi-texniki bazası xeyli möhkəmlənmiş, təhsilin, elmin və kadr hazırlığının səviyyəsi yaxşılaşmışdır. Elmi tədqiqat işlərinə maraq artmışdır. Fakültədə elmi dərnəklər fəaliyyət göstərir və dərnəklərə tələbələrin cəlb edilməsinə diqqət əhəmiyyətli dərəcədə artmışdır.

Fakültənin alimləri xarici ölkələrin, xüsusilə Türkiyənin, Qazaxıstanın, Özbəkistanın, Rusiya Federasiyasının və s. elm və təhsil müəssisələri ilə, alimləri ilə sıx əlaqə saxlamaq imkanı əldə etmişdir. İndi, alimlərimiz xarici ölkələrdə keçirilən ümumi əhəmiyyət kəsb edən konfranslarda, tədbirlərdə əvvəlki illərlə müqayisədə daha çox iştirak edirlər. Son illərdə alimlərimizin əsərləri daha çox Rusiyada, Belarusiyada, Türkiyədə, Gürcüstanda, ABŞ-da, Rumıniyada və b. xarici ölkələrdə çap olunmuş, nüfuzlu jurnallarda çap olunan məqalələrin sayı artmaqdadır. Fakültənin aparıcı əməkdaşları, hətta doktorantları hər il onlarla beynəlxalq konfranslarda, seminarlarda, simpoziumda, konqresdə fəal iştirak edirlər ki, bu da fakültənin xarici ölkə universitetləri və elmi müəssisələri ilə əlaqələrinin daha da yaxşılaşmasına şərait yaradır. Bütün bunlar alimlərimizin xarici ölkələrdə tanınmasına və onların bir sıra xarici ölkələrin universitetləri və elmi cəmiyyətlərinin üzvü seçilməsinə səbəb olmuşdur.

Tarix fakültəsində son beş ildə (2019-2024) əldə etdiyi uğurlarda, bir sıra qüsurların, nöqsanların aradan qaldırılmasında, kadr potensialının, tədrisin və elmi tədqiqatların keyfiyyərinin yüksəldilməsində münbit fəaliyyət mühitinin yaradılmasında, fakültədə beynəlxalq və respublika konfransların, seminarların və s. keçirilməsində universitet rəhbərləyinin də böyükköməyi, diqqəti və qayğısı olmuşdur. Onu da, xüsusi qeyd etmək istəyirəm ki, cənab Elçin Babayev BDU-ya rektor təyin edildikdən (2019-cu il) sonra universitetin, həm də bu universitetin yaşıdı Tarix fakültəsinin fəaliyyətində, ictimai-siyasi həyatında ciddi dönüş yaranmış, dəyişikliklər baş vermiş, fakültənin ab-havasına yeni nəfəs gətirilmişdir. Vaxtaşırı Tarix fakültəsinin rəhbərliyi, kafedra müdirləri, professor-müəllim və tələbə heyəti ilə görüşən Elçin Babayev fakültənin uğurlarını, qarşıda duran vəzifələri önə çəkməklə yanaşı, fəaliyyətimizdə, işimizdə olan nöqsanlar, qüsurları da göstərmiş, onların qısa müddətdə aradan qaldırılması üçün öz tövsiyyələrini və tapşırıqlarını vermişdir.

Bütün bu görülən işlərin, tədbirlərin nəticəsidir ki, hazırda BDU-nun Tarix fakültəsi tarix və regionşünaslıq (Amerika və Qafqaz) ixtisasları üzrə ölkənin ən mühum elm və təhsil mərkəzinə çevrilmişdir. Hazırda fakültədə 5503.02 – "Vətən tarixi" və 5502.01 –"Ümumi tarix" Tarix üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün Dissertasiyası şurası da fəaliyyət göstərir. Son vaxtlar Bakı Dövlət Universitetində elm və təhsilimizin, elmi tədqiqatların müasir tələblərə uyğun, hərtərəfli inkişafına şərait yaradılması istiqamətində geniş islahatlar proqramı həyata keçirilir.

İnkişaf etmiş, dünyanın tanınmış universitetlərinin, elm və təhsil mərkəzlərinin təcrübəsinə əsaslanan bu proqramın ən önəmli tərkib hissələrindən biri də xalqımızın zəngin, qədim tarixini, maddi və mənəvi mədəniyyəti hərtərəfli olduğu kimi, heç bir təhrifə yol vermədən dərindən araşdırmaqdan ibarətdir.

Xalqımızın tarix elminin XX əsrin vəziyyətini, mövcud olan tarixi araşdırmaları təhlil edən Ümummilli lider Heydər Əliyev bu dövr tariximizin obyektiv, olduğu kimi yazılması zəruriliyindən bəhs edərkən qeyd edirdi ki, "XX əsrin çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu əsrdə yazılmış əsərlərdə ideologiya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olmuşdur".

Tariximizin yeni təfəkkür süzgəcindən keçirilməsinə, obyektiv, təhrifə yol vermədən, olduğu kimi yazılmasına xüsusi önəm verən, qayğı göstərən xalqımızın Ümummilli lideri Heydər Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də ziyalılarla, AMEA-nın rəhbərliyi ilə görüşü zamanı qeyd etmişdir ki, Azərbaycanın XIX-XX əsrlər tarixi yenidən yazılmalıdır [14, s.368]. Azərbaycanın milli tarix elminin gələcək inkişaf strategiyası müəyyənləşdirilməsinin, tarixçilər ordusunun səfərbər edilməsinin və istiqamətləndirilməsinin vacibliyini qeyd edən Ulu Öndər Heydər Əliyev bu tarixi görüşlərində verdiyi tövsiyyələri ilə Azərbaycan tarixçilərinə və o cümlədən, BDU-nun tarixçilərinə tariximizin önəmli taleyüklü, milli dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən problemlərinin dərindən və obyektiv araşdırılması üçün dövlət səviyyəsində hərtərəfli şərait yaratdı.

Tarix ixtisası üzrə Azərbaycan Respublikasının ümumtəhsil, orta ixtisas və ali məktəbləri üçün tədris planları, dərslikləri, dərs vəsaitləri və proqramların hazırlanmasında Tarix fakültəsinin bu sahədə uğurları Avropa Şurası xətti ilə də təsbit olunmuşdur.

Hazırda Tarix fakültəsində müstəqil Azərbaycanımız üçün kamil mütəxəssislər hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi araşdırmaları daha yüksək səviyyədə aparmaq istiqamətində məqsədyönlü iş aparılır [15, s.14-15].

***Nəticə.*** 105 illik fəaliyyəti dövründə Tarix fakültəsi Respublikamızın dövlət idarələri,icra strukturları, nazirlikləri və elm, maarif, təhsil,mədəniyyət müəssisələri üçün kadr hazırlayan mühüm mərkəzə çevrilmişdir. Bakı Dövlət Universiteti yaradılarkən, onun ilk iki fakultəsindən biri olan Tarix fakültəsi də şərəfli inkişaf yolu keçərək, respublikamızda tarix elminin inkişafına, tarixçi kadrların hazırlanmasına öz töhfəsini vermişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Tarix fakultəsinin alimləri xarici ölkələrin elm müəssisələri və alimləri ilə əməkdaşlığı daha da gücləndirmək imkanı əldə etmişdir.

Fəaliyyət göstərdiyi illərdə Tarix fakultəsi Tarix elminin inkişafında böyük uğurlara imza atmışdır. Hazırda fakultədə təcrübəli, dərin bilikli yaşlı nəslin nümayəndələri ilə yanaşı, yüksək intellektli, müasir dövrün tələblərinə cavab verən gənc müəllimlər elmi-pedaqoji fəaliyyətlə məşğuldurlar.

Hazırda Tarix fakultəsində müstəqil Azərbaycanımız üçün kamil mütəxəssislər hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi araşdırmaları daha yüksək zirvələrə qaldırmaq istiqamətində məqsədyönlü iş aparılır.

Bu bir faktdır ki, Azərbaycanın bir sıra görkəmli elm, mədəniyyət və dövlət xadimləri Tarix fakültəsinin yetirmələridir. Dünya şöhrətli dövlət xadimi, beynəlxalq aləmdə tanınmış siyasətçi, Azərbaycan torpağının misilsiz təəssübkeşi, Azərbaycan dövlətçiliyinin xilaskarı, Azərbaycan xalqının tarixində milli oyanışın başlanmasının, müstəqilliyə doğru böyük dönüşün və Azərbaycanda müstəqilliyin formalaşmasının banisi, müstəqilliyinizin qorunub saxlanması və möhkəmləndirilməsində əvəzsiz xidmətləri olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev Tarix fakültəsinin məzunudur. Bütün Bakı Dövlət Universitetinin çoxminli kollektivi öz dahi məzunu Heydər Əliyevlə fəxr etdiyi kimi, Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə bildirmişdir: *“Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam”.*

Respublika Prezidenti İlham Əliyev qeyd edir ki, xalqımızın milli sərvətinə çevrilən Bakı Dövlət Universiteti bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışan çoxsaylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA). Fond 1, siy. 59, iş 9, v. 2-3.
2. Bakı Dövlət Universiteti. 100 ilin elm və təhsil məbədi. Bakı, Nurlar Nəşriyyat – Poliqrafiya Mərkəzi, 2019, 296 s.
3. Heydər Əliyev “Bakı Dövlət Universitetinin 80 illik yubileyində nitqi”, “Azərbaycan” qəzeti, 28 dekabr 1999-cu il.
4. “Bakı Dövlət Universiteti – 100 ilin Elm və Təhsil Məbədi”, Bakı, Nurlan Nəşriyyat – Poliqrafiya Mərkəzi, BDU 2019, 204 s.
5. İsgəndərov A.,Əliqızı S.Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı: Bakı Dövlət Universiteti-100, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019, 176 s.
6. “Azərbaycan” qəzeti.25 aprel, 2009-ci il.
7. “Respublika” qəzeti. 15 noyabr, 2017-ci il.
8. Heydər Əliyev və Bakı Dövlət Universiteti, Bakı, 1997.
9. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 1997, 136 s.
10. Heydər Əliyev. Bakı Dövlət Universitetinin 80 illik yubileyində nitqi. 28 dekabr, 1999-cu il.
11. “Respublika” qəzeti. 12 fevral, 2000-ci il.

12. "Azərbaycan"qəzeti. 16 iyun, 1999-cu il.
13. Hacıyev S.T., Süleymanov R.C. Tarix fakültəsinin tarixi 1919-2009. Tarixi icmal. Bakı, "Nurlar" nəşriyyatı, 2010, 276 s.
14. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, VIII kitab. Bakı, "Azərnəşr", 1998, 488 s.
15. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 56 s.

**ИБРАГИМ ЗЕЙНАЛОВ**
*Профессор Бакинского Государственного Университета,*
*Декан исторического факультета, доктор исторических наук*

**РАШАД ДЖАББАРОВ**
*Бакинский государственный университет*

## БГУ-105: БОГАТЫЙ ТРАДИЦИЯМИ ИСТОРИЧЕСКИЙ ФАКУЛЬТЕТ

На протяжении почти 70 лет Бакинский Государственный Университет упоминается наряду с именем общенационального лидера - Гейдара Алиева. Единство этих имен воспринимается как символическое выражение неразделимости политической силы и духовного развития Азербайджана. Великий лидер Гейдар Алиев является ведущей силой политической воли нашей страны, а Бакинский Государственный Университет выполняет свой долг величественного храма культуры, науки и образования, играет исключительную роль в обогащении наших национальных и нравственных ценностей. Роль университета несомненно высока и в воспитании молодого поколения в национальном и патриотическом духе.

В статье повествуется о высказываниях великого сына нашего народа, всемирно известного государственного деятеля и политика Гейдара Алиева о Бакинском государственном университете и факультете истории, являющимся ровесником этого великого учебного заведения, а также о значении, которое он придавал этому учебному заведению, и о проявляемой заботе.

В основном содержании статьи исследуются выступления великого лидера Гейдара Алиева на юбилеях Бакинского Государственного Университета, различных церемониях, проводимых здесь. Также исследуется успешная реализация идей общенационального лидера его достойным преемником, Президента Азербайджанской Республики господина Ильхама Алиева в успешной реализации идей великого лидера,славная победа в 44-дневной Отечественной войне, его беспримерная деятельность в обеспечении территориальной целостности, суверенитета на территории всей нашей страны и т.д.

Статья посвящена 105-летней истории исторического факультета, выдающихся личностях и ученых, сыгравших роль в его становлении и развитии, научных достижениях факультета, научных связях и современном положении факультета.

*Ключевые слова:* Азербайджанская Республика, Бакинский государственный университет, исторический факультет, общенациональный лидер Гейдар Алиев, Президент Азербайджанской Республики Ильхам Алиев, 5 августа 1969 года, пленум ЦК Компартии Азербайджана, общественный деятель.

**IBRAHIM ZEYNALOV**
*Professor of Baku State University,*
*Dean of the Faculty of History, doctor of historical sciences*

**RASHAD CABBAROV**
*Baku State Universitety*

## BSU-105: FACULTY OF HISTORY WITH A RICH TRADITION

For nearly 70 years, the names of Baku State University and the national leader Heydar Aliyev have been mentioned together. The unity of these names is perceived as a symbolic expression of the unity of the political power and spiritual advancement of Azerbaijan. The great leader Heydar Aliyev is the leading force of the political will of our country, and Baku State University fulfills its duty as a magnificent temple of our culture, science, and education, plays an exceptional role in the

enrichment of our national and moral values, and in the upbringing of the young generation with a national spirit and a patriotic spirit.

The article states about the statements of the great son of our people, world-famous statesman and politician Heydar Aliyev about the Baku State University and the Faculty of History, which is the same age as this great educational institution, as well as the importance he attached to this educational institution and the care he showed.

The main content of the article examines the speeches of the great leader Heydar Aliyev at the anniversaries of the Baku State University, various ceremonies held here. It also examines the successful implementation of the ideas of the national leader by his worthy successor, the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev in the successful implementation of the ideas of the great leader, the glorious victory in the 44-day Patriotic War, his unprecedented activity in ensuring territorial integrity, sovereignty throughout our country, etc.

The article is devoted to the 105-year history of the Faculty of History, outstanding personalities and scientists who played a role in its formation and development, the scientific achievements of the faculty, scientific connections and the current position of the faculty.

*Keywords:* Republic of Azerbaijan, Baku State University, Faculty of History, National Leader Heydar Aliyev, President of the Republic of Azerbaijan Ilham Aliyev, August 5, 1969, Plenum of the Central Committee of the Communist Party of Azerbaijan, public figure.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*